# Yaradıcılıqda vətən sevgisi...

## *Şair-jurnalist Nizami Məmmədzadənin ədəbi portreti*

İnsanların sənət dünyası onların şəxsiyyəti ilə uyğunluq təşkil edir. Ölkənin qələm əhli arasında parlaq istedadı, fakt və hadisələrə fərqli yanaşmaları, yorulmaq bilmədən axtarışlarda olması, peşə dəyərlərinə münasibəti, sözünün və xarakterinin bütövlüyü ilə tanınan Nizamı Məmmədzadə yetkin qələm sahibidir. Nizami müəllimin mənəviyyatı onun peşəkarlığının tərkib hissəsini təşkil edir. Bu isə ona ictimaiyyətin əxlaqına təsir etməyi imkanı verir. Cəmiyyətin tərəqqisi, inkişafı bir çox hallarda insanların mənəviyyatca, əxlaqca kamilliyindən, cəmiyyət qarşısında özünün ictimai borcunu şüurlu surətdə dərk etməsindən asılıdır. Hər bir peşənin özünə görə çətinliyi, məsuliyyəti vardır. Nizamı müəllim ilk növbədə jurnalistdir, dövrün salnaməsini yazan, insan psixologiyasını dərindən bilən, bu insanın cəmiyyətlə birmənalı olmayan münasibətlərini qələmə alan, əsrin təlatümləri fonunda onun duyğu və düşüncələrini yazılarında təsbit edən istedadlı publisistdir. Yəni o, həyatını həsr etdiyi jurnalistikanın acılı-şirinli bütün üzlərinə bələddir. Jurnalist fəaliyyəti, həyatda üzləşdiyi ağlı-qaralı hadisələr həm də onun bədii yardıcılığı üçün zəngin həyat materialı verib. Nizami müəllimlə Türkiyə Respublikasında təşkil olunan dil, folklor, ədəbiyyat, sənət, tarixə həsr olunmuş Uluslararası Simpoziumda iştirak edərkən onun jurnalist olaraq tədbirin gedişini, məramını operativ surətdə mətbuatda işıqlandırmaqla yanaşı, əsl vətəndaş mövqeyində fəaliyyəti gözümüzdən yayınmadı. Qeyd etmək yerinə düşər ki, journalist Nizami Məmmədzadə ictimai tərəqqi və inkişaf haqqında düşüncələrini yaradıcılığına hopdura bilir. Yüksək əxlaqi kamilliyinə, mənəvi zənginliyinə xüsusi diqqət yetirən Nizami müəllim Gürcüstan azərbaycanlılarının haqq səsidir. Azərbaycanla Gürcüstan arasındakı dostluq, qardaşlıq münasibətlərinə körpü salan sülhməramlı peşəkar jurnalistdir. Qeyd edək ki, Nizami Məmmədzadənin şeirləri gürcü dilinə tərcümə olunmuş, həmçinin Azərbaycan, Gürcüstan və Türkiyədəki mətbuat orqanlarında istər publisistika, istərsə də poeziya və ümumiyyətlə, bədii yaradıcılıq nümunələri dərc olunmuşdur.

Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Həsən Bəy Zərdabi adına mükafata layiq görülən şair-jurnalist Nizami Məmmədzadənin indiyədək 10 kitabı nəşr olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 1 iyun tarixli Sərəncamı ilə Nizami Məmmədzadə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb. Bu mötəbər ad Nizami müəllimə 2016-cı il iyunun 2-də Dünya Azərbaycanlılarının IV Qurultayında təqdim edilib. O, həmçinin Gürcüstanda "İlin jurnalisti" adına və "Gürcüstanın Azərbaycanlı Jurnalistləri" kitabına görə Azərbaycan Mətbuat Şurasının mükafatına layiq görülüb. Nizami Məmmədzadənin yaradıcılığına göz atsaq onun 2002-ci ildə "Bu yurd mənim Borçalımdır" şeirlər kitabının, 2004-cü ildə "Yurd həsrəti" hekayələr kitabının, 2007-ci ildə "Ata" poemasının, 2008-ci ildə "Dünyanın o üzü və yaxud Borçalıdan müqəddəs Məşhədədək xoş təəssüratlar" publisistik yazısının, 2013-cü ildə çap etdirdiyi "Borçalı harayı" sənədli povest, publisistika, hekayələr, şeirlər kitabının, "Borçalı bayatıları"nın daha neçə-neçə bədii və publisistik nümunələrə həyat bəxş edən qələm əhli olduğunun şahidi oluruq. "Borçalı harayı" sənədli povestində 1918-ci il Ermənistan - Gürcüstan müharibəsinin acı nəticələrindən, soydaşlarımızın başına gətirilən



vəhşiliklərdən, eyni zamanda Borçalıda yaşayan azərbaycanlıların erməni qəsbkarlarına qarşı mübarizəsindən bəhs olunur və sonda Borçalı torpaqlarının itirilməsindən söhbət açılır. Şeirlərində Borçalıya olan dərin sevgi, ehtiram, təəssübkeşlik hissləri misralarırın demək olar ki, hamısında duyulur:

Məndən salam olsun Əhməd Oğuza,
Borçalı elləri öz yerindədir.
Hər gün şirin dilim qovuşur saza,
Gözələ yaraşan söz yerindədir.

Bu şeirləri oxuduqca ən ağır kədərin içində də böyük bir vətən sevgisinin şahidi oluruq. Düşmənə gözdağı verməyi unutmayan Nizami müəllim bədii dilin qüdrətinə güc verib düşməninə mənəvi zərbə vurmağa davam edir:

Mərdimiz namərdə möhtac olmayıb,
Mərd əkən çiçəklər heç vaxt solmayıb,
Ustadlar çalanı şəird çalmayıb,
Ustadlar köç edib, saz yerindədir.

Nizami Məmmədzadə yaradıcılığında özünə layiqli yer tutmuş şeirlərinin əksəriyyətində Vətənin köksünə vurulan çarpaz yaralar, yurdu tərk edib gedən yurddaş nisgili, gözü yolda qalan bir qəribin atəşlərə düçar olmuş qəlbinin pörşələnmiş istəkləri duyulur:

Sinəm üstə tarix boyu çarpaz var,
Vaxt olub zamana bizə olub dar,
Könül yurd sevəndir, bəxtim olub yar-
Köç etsə də çoxum, az yerindədir.

Şairin düşmənə qarşı tuşlanan vətəndaş nifrəti, qəzəbi yazdığı şeirin misralarında çox qabarıq hiss olunur, barışmazlıq hissini coşdurur:

Kədərim, ahım da bilinir daha,
Qara günlərimiz silinir daha,
Dualar edirik o bir Allaha,
Qaş-qabaq açılıb, üz yerindədir.

Sadə misralarda sözün bayatı rəngini, musiqisini duymamaq mümkün deyil. Öz sevincini, dərdini, arzu və diləyini, könül dilləndirən həzinliyini əks etdirən bayatılarda xalqın bədii təfəkkürünü, sevgi, qayğı və nəvazişini oxuduqca doymur, axıb gedən misralarda rahatlıq tapırsan:

Belə yeri,
Belə sallan, belə yeri.
Bülbül ölməz, gül də bitməz
Necə olsun belə yeri.

Yaza nə qaldı,
Qış gəldi, yaza nə qaldı.
Qələmdə nə taxsır var,
İnsaf yazana qaldı.

Gülüm, gülüm gülümsün,
Ağlasan da gülümsün.
Düşmənin qan ağlasın,
Ellər gülə bürünsün.

Su dağıldı gilələndi,
Sevgim bir pay gilələndi.
Darvazadan yar keçəndə
Ürəyimə gül ələndi.

2015-ci ildə yazdığı "Dünya" şeirində müdrik el ağsaqqalı obrazının vəfasız dünyadan gileyləndiyini, onu yaxından tanıyıb bel bağlamadığını gözdən qaçırmırıq:

Namərdlərə meydan verən,
Mərd adamdan qaçan dünya!
Qartal kimi öz ovunu,
Tez götürüb uçan dünya!

Dünyanın insafsız, can almaqda mahir olduğuna işarə vuran şair torpağı, yurdu uğrunda canından keçən şəhidini də ehtramla xatırlayaraq düşüncələrini poeziyaya calamaqda davam edir:

Hər qapıda, hər ocaqda,
Neçə-neçə şəhid qanı.
Dünya belə bir dünyadır,
Onda insaf, mürvət hanı?

Bədii və publisistik yaradıcılıq sahib olan insanların istedadları kiçik yaşlarından formalaşmağa başlaması onların güclü şəxsiyyət olmalarının ifadəsidir. Nizami müəllim də iradəsi möhkəm, güclü şəxsiyyətlər sırasında yer alır. Poeziyaya olan marağı kiçik yaşlarından Nizami Məmmədzadəni rahat buraxmamışdır. 1983-cü ildə "Gənclik" nəşriyyatında kiçik yaşlı məktəblilər üçün nəşr olunan və Azərbaycanın görkəmli şairlərinin də şeirləri ilə birlikdə dərc olunmuş "Doğdu günəş qırmızı" adlı kitabçada "Qaya qisası" adlı ilk şeiri çap olunmağa vəsiqə qazanmışdır:

Gah qızardı,
Gah bozardı,
Yamaclarda çapıq qaya.
Acıqlanıb şəlaləni
Sinəsindən atdı çaya.irlikdə
Düşündü ki,
Şəlalədən qisas aldı.
Şəlalısə
Sinəsini
Sahillərə çırpa-çırpa
O qayadan uzaqlaşdı,
Aram-aram çağlayaraq
Dəniz adlı arzusuyla
qucaqlaşdı.

Bu gün Nizami müəllimin mətbuatda necə sərrast bir jurnalist olduğunu görməmək mümkün deyil. İti müşahidəsi, yüksək hissiyyatının gücü və intellektual bəsirəti ilə mövcud ictimai həyat məsələlərini işıqlandırır, ortaya aktual ictimai prosesləri əks etdirən yazılar qoyur. Bu və ya başqa problemlərə, qayğılara daim həyatın nəbzi üstündə olan şair-jurnalist, publisist Nizami Məmmədzadənin məqalələri, şeirləri onu göstərir ki, yazılanlar həyatın özündən qaynaqlanırsa, el-obanın, torpağın dərdini, cəmiyyətin qayğı və problemlərini dürüst əks etdirirsə, həm də müəllif düşüncəsindən süzülüb bəlli bir formada cazibədar əsərə çevrilirsə, onun fikir və düşüncələri oxucunun qəlbini yetərincə oxşaya bilir. Nizami müəllim ürəyi vətənə sevgi dolu bir jurnalistdir. Onun yaradıcılığında vətən sevgisi əsas qayələrdən biridir:

Torpağım Vətənimdir, daşım da Vətən,
Bir ovuc torpağa könül vermişəm.
Torpağa atdığım bircə ovuc dən -
Üzümü ağardıb, çörək görmüşəm.
Ah, bu torpaq Azərbaycan elidir,
Mən onu sevəcəm hər zaman, hər vaxt!

Qeyd olunduğu kimi, Nizami Məmmədzadə uzun illərin mətbuat işçisi olmaqla yanaşı, peşəkar şair-jurnalistdir. O, əgər bir mövzu haqqında yazmaq fikrində olacaqsa, həmən mövzu ətrafında araşdırma aparacaq, işləyəcəyi mövzunun mətnini dəqiqliyi ilə öyrənib, sonra qələmini işə salan qələm sahibidir. Nizaminin seçdiyi mövzu rəngarəngliyi geniş və hərtərəflidir. Onun poeziyasının sadə və yaddaqalan misralarında böyük sətiraltı məna, dərin məhəbbət kök atmışdır. Vətən təəssübü, xalq sevgisi Nizami Məmmədzadənin şeirlərinin əsas qayəsi olub. Ona görə də yaradıcılığında təkcə yaşadığı Borçalını deyil, ona doğma olan mənəvi Vətəni-Azərbaycanı da böyük məhəbbətlə tərənnüm edir:

Azərbaycan-böyük məmləkət!
Azərbaycan-isti yuva!
Azərbaycan-Vətən!
Azərbaycan-qolum-qanadım!
Azərbaycan-sevən ürəyim!
Azərbaycan - mübarizə meydanlarında inkişaf edən bir ölkə!
Azərbaycan-torpaqları tarixən yaddaşlara hopmuş bir ölkə!

Şeirlərindən də göründüyü kimi bədii bitkinliyini təmin edən amillərdən daxili qayəyə, sujet xəttinin qurulma və inkişaf tərzinə uyğun olan dil materialının seçilməsində Nizami müəllim həsaslıq göstərir. Nizami Məmmədzadə çalışır ki, elə maraqlı sözlərlə poeziyasını zənginləşdirsin ki, oxucu darıxmadan şeiri sona qədər oxumağa maraqlı olsun və bir cümlə, bir söz də olsa belə onu yadında saxlaya bilsin. Şairin şeirlərində həyatın, ömrün mənası, vətən, ana məhəbbəti, təbiətin gözəlliyi ilə bağlı düşüncələr də öz əksini tapır.

Məhz belə parlaq publisistik əsərlər mənalı poeziya və nəsr nümunəsi kimi məyusluğa və ruh düşkünlüyünə qalib gəlməkdə oxucuya kömək edir. Fikrimcə, istənilən qələm sahibi, o cümlədən yazıçı publisistikada bir xarakter kimi daha aydın və şəffaf görünür.

Gürcüstanın Azərbaycanlı Jurnalistlər Birliyinin sədri, Gürcüstan Azərbaycanlılarının Xəbər Agentliyinin ("Gaxa.ge")-informasiya portalının rəhbəri Nizami Məmmədzadə zamanın nəbzini tutan, toplumun dərdlərinə işıq salan, yaradıcılığında müasir insanın düşüncə və qayğılarını gündəmə gətirməyi bacaran söz sahibidir. Nizami müəllimin şeirlərində ictimai-sosial və mənəvi-əxlaqi kateqoriyaların qırmızı xətlə keçdiyini xüsusi vurğulamaq lazımdır.

Şair-jurnalistin yaradıcılığında günümüzdə oxucu tərəfindən sevilə-sevilə oxunan bu cür parlaq publisistik əsərlər və poeziya nümunələri, qəlbə xitab edən mahnı sözləri məyusluğa və ruh düşkünlüyünə qalib gəlməkdə oxucuya kömək edir, yaddaşlara hopur. Nizami Məmmədzadənin şeirlərindəki poetik-estetik ovqat obrazlılıq üzərində qurularaq musiqi kimi axıcı və ritmikdir. Şeir dili estetik çalarlar üzərinə köklənir və sözü obrazdan obraza salaraq ona yeni məna çaları qatır, köhnə qəliblər üzərində təzə poetik obrazlılıq yaradır:

Özünüdərketmə üzərində yaranan poeziya, şeirlərindəki fəlsəfi qat insan və zaman konteksti üzərində bərqərar olur. Onun bədii təfəkkürünün süzgəcindən süzülüb gələn"Verin mənim haqqımı" şeirində düşündüklərini və yaşadıqlarını yazaraq həm də özünü yaradır:

*(Davamı 15-ci səhifədə)*

# Şair-jurnalist Nizami Məmmədzadənin ədəbi portreti

*(Əvvəli 14-cü səhifədə)*

Verin mənim haqqımı!
Qoymaram üzülməyə!
Qoymaram onu mən
Dərdim kimi sinəm üstə
düzülməyə...
Başlayacaq dərdim mənim,
yavaş-yavaş çözülməyə.
Verməsəniz haqqımı
Səbrim tükənər daha.
Şikayət edərəm mən,
O görünməz Allaha!

N. Məmmədzadəni oxuculara sevdirən bir səbəb də poeziyasında xəlqilik, milli kökə, mənəviyyata bağlılığıdır. Şeirlərindəki Vətən obrazı onun yurduna, el-obasına vurğunluğundan doğulur. Vətənə həsr etdiyi şeirlərində nümunəvi vətəndaş kimi çıxış edir. Vətənindən, el-obasından ayrı düşən insanları haraylayan şair mənəvi iztirabların, ayrılıq dərdini dilləndirməyi bacarır, saf duyğuların poetik ifadəsini təbii şəkildə danışdırır:

Qayıdın vətəndən, eldən köçənlər,
Qayıdın bulaqdan saf su içənlər,
Qayıdın çəməni, çölü biçənlər,
Qayıdın o dağlar sizi gözləyir.

Şair vətənindən didərgin düşmüş soydaşlarına "Qayıdın" poetik təkrarı ilə öz harayını çatdırır:

Könlümə bir həsrət teli düşübdür,
O sazın bəmi-bəm, zili düşübdür,
Türk ellərimizin dili düşübdür.
Qayıdın dodaqlar sizi səsləyir.

Birinci Qarabağ müharibəsinin tarixi şəraitini, mühitini gözü ilə görmüş, qaçqın xarakteristikasını, nisgilini yaxşı bilən Nizami müəllim didərgin insanların həyatını təsəvvür etmək baxımından da mahir şairdir:

Didərgin etməyin oğulu, qızı,
Azalıb göllərdə ördəyi, qazı,
Yenə cövlan edir Əmrahın sazı-
Qayıdın, barmaqlar sizi gözləyir.

Həyat nəğməmi də yazıram, bilin.
Kədərli durmayın - göz yaşı silin,
Nura boyanıbdır yolları elin,
Evlərdə çıraqlar sizi gözləyir.

Şair-jurnalistin Azərbaycanın işğal altında olan torpaqları uğrunda istər birinci, istərsə də ikinci Vətən Müharibəsi zamanı gecələr yatmayaraq qələmə aldığı poeziya nümunələri vətənə həsr olunmuş kitablarda, saytlarda, qəzet və jurnallarda vətənə böyük sevgisi olaraq yaranmış ən mənalı şeirlərdəndir.

Kaş, adlar içində adım çəkilə!
Könlümün bağçası meyvə gətirsin!
Sevirəm səni mən, ey gözəl Vətən!
Sən mənə çiçəksən, mənə ətirsən!

Uzandım yamyaşıl şehli sinənə,
Ələndi üstümə şeh sərin-sərin!
Duya bilməmişdim, ey doğma Vətən!
Şahlıq qüdrətini çəmənliklərin!

Cahana gəldim ki, səni çox sevəm,
Sinəmdə arzular coşub, hey daşsın!
Kükrəyib coşmağa oğul istərəm,
Qarşında düşmənlər tülkütək qaçsın!

"Könlümün sevgisi, məhbubu, Vətən!"
Sənə oğul gərək, sənə tən gərək!
Sənin gələcəyin parlaqdır, ağdır -
Qələbə soraqlı bircə gün görək!
Qələbə soraqlı bircə gün gərək!

"Bu torpaq uğurunda ölüm" şeirində şair belə yazır:

Bu torpaq uğrunda ölüm, ay ana!
Min ağı söyləsin şip-şirin dillər!
Bəzənsin tabutum al bayrağımla,
Məni qəbrə qoyub ağlasın ellər!

Dolansın başıma yarım-sevgilim,
Başdaşım vətənə bayrağım olsun!
Razıyam öləndə kəfənim üstə,
Tökülən bir ovuc torpağım olsun!

Bu torpaq müqəddəs, bu torpaq həyat,
Gələcək nəsilə ərmağan verim!
Bu torpaq üstündə əkdiyim gülün -
Bir qönçə gülünü siz mənə dərin!

Dərin o gülləri arzularımtək,
Dərin bayrağıma oxşar gülü siz!
Deyin qəbrim üstə, bayatı şeir,
Gəlsin göz yaşıyla bir gülüzlü qız!

Şəhidəm, analar, qəbrimin üstə,
Gəlin, asta-asta laylamı çalın!
Mən südəmər nadinc bir uşağam ki,
Həsrətəm bir gecə mənimlə qalın!

Şair Vətən müharibəsi zamanı qələbəyə, böyük Zəfərə inanır və uzaqdangörünən və tapdaq altında inildəyən torpaqların ona məxsus olduğunu bildirir:

Dədə-baba yurdu-yuvamı gəzdim,
Düşmən tapdağından yamanca bezdim,
Qartaltək zirvədən elləri süzdüm,
Uzaqda görünən o el mənimdir!

Gəzdiyim oylaqlar, yal-yamac hanı?
Qovdum zirvələrdən çəni, dumanı,
Qarı düşmən, bilki qovacam səni -
Boz atın süzdüyü o yal mənimdir!

Saxlayaq hələ biz sorğu-sualı,
Sənə sözüm, kəlməm hələki qalı,
Yanır od-ocaqsız Ələsgər, Alı -
Çeşmə başındakı o kol mənimdir!

Çiçəyini üzsəm dərənin-dağın,
Oyanar igidi yurdun-oylağın,
Yenə Qarabağa Zəfər bayrağı -
Əlimlə taxacam, o əl mənimdir!

Əməkdar jurnalist Nizami Məmmədzadə təəssübkeş bir insandır. Onun böyük ürək yanğısı ilə "Gürcüstanda Azərbaycandilli jurnalistikanı inkişaf etdirmək vacibdir" şüara çevrilən sözləri, ana dilimizin qayğısına qalması bu fikrimizi təsdiqləyir. Mən inanıram ki, ictimai insan, bədii yaradıcılığı ilə oxucu qəlbini fəth etmiş bir şair-jurnalist həyatımızın mürəkkəb problemlərini gündəmə gətirən publisist, jurnalistikamızın inkişafında xidmətləri olan Nizami Məmmədzadənin yaradıcılığı elmi tədqiqat əsərlərinə yol açacaq, ciddi şəkildə araşdırma obyektinə çevriləcəkdir. Yaşadığımız dövrdə ətrafımızda baş verən mürəkkəb hadisələri vicdanla qələmə almaq, həqiqətə sadiq qalaraq dövrün gerçək salnaməsini yazmaq, bu fonda müasirlərimizin portretini çizmək hər bir vicdanlı jurnalist üçün mənəvi ehtiyacdır. Yazdıqlarını toplayıb kitab halına gətirmək isə artıq dövrün ab-havasını kağıza hopdurmaq, onu bir növ əbədiləşdirmək, gələcəyə cığır salmaq, zamanın yaddaşını itilətmək, salnaməyə çevirmək deməkdir.



Mehriban Əsədullasoy

***(QULİYEVA),***
***Naxçıvan Dövlət Universiteti***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***